# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Məhəmməd Füzuli təsirindən çıxmağa doğru atılmış bu addım Azərbaycan lirikasını xalq həyatına və xalq ədəbiyyatına yaxınlaşmağa doğru yönləndirmişdir. Bütün bunlara görə Saib Təbrizi Azərbaycan ədəbiyyatında Məhəmməd Füzulidən sonrakı və Molla Pənah Vaqifdən əvvəlki poeziyanın görkəmli yaradıcısıdır. Saib Təbrizi Azərbaycan klassik romantik şeirinin realist ədəbiyyata doğru keçdiyi təkamül prosesinin əsas hərəkətverici qüvvəsi olan novator sənətkardır.

XVII əsrdən klassik lirikada həyati-didaktik meylin qüvvətlənməsinin "bir az sonra meydana çıxan Azərbaycan realizminin ilkin addımlarının atılması üçün münbit zəmin" hazırladığını, Məhəmməd Əmaninin (1536-1610) yaradıcılığında didaktikanın klassik tərənnümü üstələməyə doğru inkişafı, Sadiq bəy Əfşarın (1522-1609) şeirlərindəki xalq ruhu, Fədai Təbrizinin "Bəxtiyarnamə" poemasının başdan-başa əxlaqi-didaktik məsələlərə həsr olunmasının da "ədəbiyyatda yeni hadisə" olması, Qövsi Təbrizinin (1568-1640) də klassik lirikasında həyati-didaktik nümunələr diqqətə çəkilir.

XVII əsr Azərbaycan poeziyasında müşahidə olunan açıq tənqidi ruhu qeyd edən alim ədəbiyyatda "Şikayətnamə" ənənəsinin dərinləşdiyini, bu mərhələdə, "hətta konkret tənqid hədəflərinə malik əsərlərin yazılması"nı, ədəbiyyatda romantik üslubun tədricən zəifləməsini, realist meylin güclənməkdə olduğunu nəzərə çatdırır. "Tərzi Əfşarın (?-1678) hökmdar II Şah Abbasın vəziri Nəvvab Sultana göndərdiyi məsnəvisində vəqf idarəsi məmurlarını rüşvətxorluqda təqsirləndirməsi, Ağa Məsih Şirvaninin (?-1766) yazdığı "Vərqa və Gülşa" poemasındakı mürəkkəb və gərgin həyati hadisələri romantik üslubda təsvir etməsi, Arif Şirvaninin "dövrün hakim sinfini təmsil edənləri həcvlə tənqid etməsi", Əlican Qövsi Təbrizinin şeirlərindəki həyat hadisələrinə münasibətdə "gerçəkliyə meyil və tənqid notları"nın olmasının artıq realizmin "ədəbiyyatın qapısını" döyməkdə olduğu qənaətindədir.

Eyni zamanda İsa Həbibbəyli bildirir ki, Şakir Şirvaninin "Əhvali-Şirvan" tarixi mənzuməsində "ölkədəki çətin və mürəkkəb vəziyyət realist boyalarla" əks etdirilmişdir. Məhcur Şirvaninin "Qisseyi-Şirzad" poemasında tarixi mövzu əsasında şairin yaşadığı dövrün reallıqlarına obyektiv münasibət ifadə olunmuşdur. "Ədəbiyyatda Azərbaycan realizminin ilkin rüşeymləri olan bu əsərlər nəinki gerçək həyat lövhələrini, hətta real tarixi hadisələri və siyasi prosesləri də əks etdirirdi. Şairlərin dövrün ictimai səciyyəsini verməleri, ...haqsızlıq və ədalətsizlikləri cəsarətlə tənqid etmələri" XVII əsr Azərbaycan ədəbiyyatının xarakterik xüsusiyyətlərindən biri hesab olunur. Sadəcə olaraq, bu tənqid klassik lirikadakı giley-güzardan irəli getsə də, hələlik təsviri xarakter daşıyır, əsərdən əxlaqi-didaktik nəticə çıxarmağa xidmət edirdi".

Azərbaycan ədəbiyyatında XVII əsrdən epik növdə yazılan əsərlərə marağın qüvvətlənməsinin poeziyanın öz yerini poemalara verməkdə olduğunu, bu mənada Fədai Təbrizinin "Bəxtiyarnamə", Ağa Məsih Şirvaninin "Vərqa və Gülşa", Sadiq bəy Əfşarın "Şöhrətli Abbasın qələbə kitabı", Kövsəri Həmədaninin "Fərhad və Şirin" poemalarında ibrətamiz əhvalatların, bəzən isə tarixi hadisələrin qələmə alınması romantika ilə realist meyillərin mübarizəsində ikinci amilə üstünlük verildiyini göstərdiyini yazır. Orta əsrlər Azərbaycan epik ədəbiyyatından fərqli olaraq, erkən yeni dövrdə yaranmış poemalarda lirikanın deyil, "hadisə, süjet xəttinin inkişafı, obrazların təkamülü"nün əsas yer tutduğu, bu əsərlərdə həyatdan alınmış hadisə və obrazlar romantik boyalarla yox, "gerçəkçi mövqedən" mənalandırıldığı qənaətindədir. Bunun isə XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında gedən həyatilik və xəlqiləşmə proseslərinin təzahürləri olub, XVIII əsr Azərbaycan ədəbiyyatında müşahidə edilən "erkən realizmin proloqu" adlandırmaq mümkünlüyünü qeyd edir.

Bu dövrdə poeziyada xalq ədəbiyyatına və canlı danışıq dilinə doğru ciddi dönüşü qeyd edir. Bu mərhələdə Azərbaycanda Sarı Aşıq (XVII əsr), Abbas Tufarqanlı (XVII əsr), Xəstə Qasım (XVIII əsr) kimi ustad aşıqların olması "ədəbiyyatda milli bədii təfəkkürü daha da qüvvətləndirmiş", xalq-aşıq şeiri ilə yazılı şeirin dil-üslub xüsusiyyətləri arasındakı fərqin azaldığı fikrindədir: "XVIII əsrdə yaşayıb-yaratmış Xəstə Qasımın şeirləri ilə Molla Pənah Vaqifin şeirlərini bir-birindən fərqləndirmək çətindir. Xəstə Qasımın aşağıdakı misralarını eynilə dövrün yazılı poeziyasına da aid etmək mümkündür:

Gümüş kəmər bağlayıbdır belinə,
Danışdıqca mail oldum dilinə.
Gül uzatdım nazlı yarın əlinə,
Canım aldı gülü məndən alınca".



Erkən yeni dövrdə yaranan, geniş yayılan "Koroğlu" qəhrəmanlıq dastanına marağın artırdığı, "Şah İsmayıl", "Aşıq Qərib", "Əsli və Kərəm", "Xəstə Qasım və Mələksima" dastanlarının meydana çıxmasının və məclislərdə yayılmasının "yazılı ədəbiyyatda xalq həyatına, ana dilinə, milli-mənəvi oyanışa doğru ciddi dönüşə" təkan verdiyini, klassik poeziyada möhkəmlənmiş "qəzəl, qəsidə, rübai janrları ilə rəqabətdə qoşma, gəraylı janrlarının tədricən üstünlük qazanmasında genişlənməkdə davam edən aşıq ədəbiyyatının xüsusi əhəmiyyət" kəsb etdiyini açıqlayır.

İsa Həbibbəyli XVII-XVIII əsrlərdə yaranan Azərbaycan bədii nəsrini araşdırır. Bu fikirlərlə razıdır ki, bu mərhələdə "bədii nəsr klassik poemaların "dibaçə" hissəsindən ayrılaraq müstəqil inkişaf yoluna qədəm qoyur, yeni vüsət qazanaraq ədəbi-bədii cəhətdən də, dil-üslubca da, məfkurəcə də kamilləşir" (Ə.Səfərli). Mənzum hekayənin müstəqil janra çevrildiyi həmin dövrdə, nəsrlə yazılmış hekayə janrının da formalaşması, Vəli Ərəşinin qələmə aldığı "Düzd və qazi" hekayəsinin Azərbaycan ədəbiyyatında bu janrın ilk nümunəsi kimi meydana çıxması, poeziyadakı "hind səbkisi"nin dalğasında "hind folkloru əsasında yaranmış "Tutinamə"nin azərbaycanlı müəllif Möhsün Nəsiri tərəfindən Azərbaycan variantının yaradılması", bədii nəsrin inkişafında mühüm addım olması, nəsrin üstünlük təşkil etdiyi "Şəhriyar" dastanının "nəsr sahəsində proseslərin genişlənməsinin məntiqi yekunu kimi əhəmiyyətli ədəbi hadisə" olması diqqətə çatdırılır.

Bu təhlil və araşdırmalara əsasən İsa Həbibbəylinin gəldiyi qənaət budur ki, XVII əsr Azərbaycan ədəbiyyatı klassik romantik poeziyadan erkən realizmə keçid dövrüdür. Bu dövrün poeziyası romantik lirikadan gerçəkliyin bədii ifadəsinə doğru baş vermiş ilkin böyük dönüşdür, yeni ədəbi istiqamətin başlanğıcıdır. XVII əsrdə yaranan yeni tipli Azərbaycan ədəbiyyatı XVIII əsr Azərbaycan realist şeirinin proloqudur. Azərbaycan realizmi XVII əsrin "keçid dövrü" ədəbiyyatı vasitəsilə formalaşaraq realist mərhələyə qədəm qoymuşdur.

XVII əsrdə lirika klassik romantik ənənədən birdən-birə ayrılmamış, "tədrici təkamül yolu ilə inkişaf edərək XVII əsrin ortalarında fərqli bir ədəbiyyat görüntüsü yarada bilmiş", "yeniləşməkdə olan "XVII əsr Azərbaycan ədəbiyyatı Məhəmməd Füzuli ilə Molla Pənah Vaqif arasında mühüm bir körpü funksiyasını yerinə yetirmişdir". Bu dövrün Azərbaycan ədəbiyyatının "orta əsr tipindən yeni tipli ədəbiyyata keçid mərhələsi" kimi də mühüm əhəmiyyətə malik olduğunu bildirir.

XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının birlikdə erkən yeni dövr ədəbiyyatı mərhələsini formalaşdırmış olduğunu bildirən İsa Həbibbəyli "Ədəbiyyatşünaslıqda bu tarixi mərhələdə ədəbiyyatın xarakterinə uyğun olaraq həyat hadisələrinin, insanın zahiri və mənəvi gözəlliyinin gerçək cizgilərinin mənalandırılmasına üstünlük verildiyi üçün bir müddət həmin dövrün ədəbiyyatı təsviri realizm kimi səciyyələndirilmişdir", - deyir. Bununla belə, ədəbiyyatşünas Yaşar Qarayevin "təsviri realizm anlayışının XVIII əsrin Azərbaycan ədəbiyyatının reallıqlarını tam ifadə etmədiyi" ilə bağlı fikirlərini haqlı sayır: Yaşar Qarayev yazır: "Vaqifin adı və üslubu ilə bağlı məktəbə aid edilən "təsviri realizm" istilahı, şübhəsiz, şərti ifadədir. Əslində, "realizm", hər şeydən əvvəl, təsvirçilikdən uzaqlıq deməkdir. İlkin realizmə "təsiri olmayan" sonrakı dövrün realizmi ilə müqayisədə verilmiş bu ad həmin realizm tipinin mahiyyətini ifadə edə bilmir".

"Bu, Azərbaycan ədəbiyyatında realizmin başlanğıc mərhələsi idi. Doğrudur, əsasən, romantik istiqamətdə inkişaf etsə də, klassik Azərbaycan poeziyasında da bütün dövrlərdə realist meyillər olmuşdur", - deyən İsa Həbibbəyli Nizami Gəncəvinin yaratdığı kərpickəsən kişinin obrazını, Əfzələddin Xaqaninin "Mədain xərabələri" əsərindəki "romantik ideralla yanaşı, realist cizgiləri də" nəzərə çatdırması, Məhəmməd Füzulinin "Şikayətnamə" əsərindəki hadisə və şəxsiyyətlərə, əsasən, real, gerçək münasibəti qeyd edir və "Tərəddüd etmədən "Şikayətnamə"ni Azərbaycan ədəbiyyatında romantik-realist nəsrin ilk mükəmməl nümunəsi hesab etmək olar".

İsa Həbibbəyli Molla Pənah Vaqifin şeirlərindəki real və təbii təbiət mənzərələrini yüksək qiymətləndirir və onu şair-rəssam adlandırmağın mümkünlüyünü söyləyir. Ona görə də XVIII əsrin realizmini "təsviri realizm deyil, realizmin başlanğıc dövrünün ovqatını yaşayan və əks etdirən erkən realizm" kimi xarakterizə edir. Vaqifin realizmini Azərbaycan ədəbiyyatında realizm ədəbi cərəyanının mükəmməl bədii müqəddiməsi, onun "Görmədim" müxəmməsini "ideya-bədii xüsusiyyətlərinə görə Azərbaycan realizminin möhkəm təməllərindən və əsas örnəklərindən biri hesab edilməyə layiq", "Azərbaycan ədəbiyyatında erkən realizmin kulminasiya nöqtəsi", "realizmin sonrakı mərhələsinə keçməyin zərurətini bəyan edən ədəbi akt" kimi yüksək qiymətləndirən alim, dövrün böyük ziddiyyətlərini bütün reallıqları ilə özündə ifadə edən "Görmədim" şeirində "milli realist ədəbi düşüncənin əsas xüsusiyyətləri və bütün enerjisi"nin bədii əksini tapdığını yazır. Vaqifin yaradıcılığını, xüsusən də "Görmədim" şeirini "Azərbaycan ədəbiyyatında realizm epoxasının artıq dönməz xarakter aldığını təsdiq edən ədəbi bəyanat", dərin ictimai məzmunu və təsvir vasitələri ilə Azərbaycan realizminin erkən dövrünün proqramı" adlandırır. "Görmədim" şeirindən aşağıdakı bəndləri nümunə gətirir:

*Mən cahan mülkündə mütləq, doğru halət görmədim,*
*Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim,*
*Aşinalar ixtilatında sədaqət görmədim,*
*Biətü-iqrarü-imanü dəyanət görmədim,*
*Bivəfadan lacərəm təhsili-hacət görmədim.*

*...Kizbü böhtandan səvayi bir hekayət görmədim,*
*...Bulmadım bir dost ki, ondan bir ədavət görmədim,*
*...Hiç kəsdə haqqa layiq bir ibadət görmədim,*
*...Qədrü-qiymət istəyib, qeyr əz xəsarət görmədim,*
*...İşlənən işlərdə ehkamü ləyaqət görmədim.*

*...Dövlətü iqbalü malın axırın gördüm tamam,*
*Həşmətü cahü cəlalın axırın gördüm tamam,*
*Zülfü ruyü xəttü xalın axırın gördüm tamam,*
*Həmdəmi-sahibcəmalın axırın gördüm tamam,*
*Başadək bir hüsnü-surət, qəddü-qamət görmədim.*

Və gəldiyi qənaət budur ki, Molla Pənah Vaqif Azərbaycan ədəbi-ictimai fikrində Məhəmməd Füzulidən sonrakı, Mirzə Fətəli Axundzadədən əvvəlki böyük ədəbiyyatın fərqli zirvəsidir. Vaqifin "Görmədim" müxəmməsi "Koroğlu" dastanı ilə "Molla Nəsrəddin" məktəbi ədəbiyyatı arasında möhtəşəm ədəbi körpü" rolunu oynayır.

Molla Vəli Vidadinin (1709-1809) "Müsibətnamə"sinin "Azərbaycan ədəbiyyatının daha ağrılı çalarlarını" özündə əks etdirməsini qeyd edir. XVIII əsr Azərbaycan realist şeirinin qoşa qanadları olan Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin "Durnalar"ı haqqında obrazlı şəkildə "mahiyyət etibarilə realizmi Azərbaycan ədəbiyyatına gətirən durna qatarı idi", - deyir: Molla Pənah Vaqifin yaradıcılığı ilə xalq şeiri və yazılı poeziya arasındakı fərqin aradan qalxdığını, XVIII əsr Azərbaycan ədəbiyyatında heca vəznində yazılmış şeirin əruz vəznli poeziyanı arxada qoyduğunu, bunun "Azərbaycan poeziyasında əruz epoxasının ilkin süqut dövrü" olduğunu söyləyən İsa Həbibbəyli fikrini davam etdirərək bildirir ki, "məhz bu mərhələdən sonra Azərbaycan poeziyasında heca vəznli şeir dönməz xarakter almış, yüksələn xətlə inkişaf etmişdir. Vaqifin şeir yaradıcılığı ilə Azərbaycan poeziyasında heca vəznli şeirin oturuşmuş bir sistemi yaradılmışdır.

***(Davamı var)***

***Gülxani PƏNAH***